COP29 Baku Azerbaijan
UN CLIMATE CHANGE CONFERENCE

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



# YAŞIL GƏLƏCƏK YOLUNDA | NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

1967
NAKHCHIVAN STATE UNIVERSITY

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ VƏ COP29

Naxçıvan Dövlət Universiteti, COP29 çərçivəsində qlobal iqlim təşəbbüslərinə töhfə vermək və ekoloji dayanıqlılığı təşviq etmək məqsədilə davamlılıq prinsiplərinə sadiqliyini nümayiş etdirir. Universitet, yaşıl enerji mənbələrinin tətbiqi, biomüxtəlifliyin qorunması və ekoloji maarifləndirmə sahəsində reallaşdırdığı layihələrlə, həm yerli, həm də qlobal miqyasda ətraf mühitin mühafizəsinə töhfə verməyi hədəfləyir.

Kampusda yaşıllıq zolaqlarının genişləndirilməsi, karbon emissiyasının azaldılması və tələbələr arasında ekoloji məsuliyyətin artırılması istiqamətində aparılan fəaliyyətlər NDU-nun qlobal iqlim çağırışlarına aktiv dəstəyinin göstəricisidir. COP29-a olan sədaqəti ilə universitet, yalnız bu günün deyil, gələcəyin ekoloji problemlərinin həllinə töhfə verməyə davam edir.

www.ndu.edu.az




“Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu.

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.

Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

"Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu. Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək.

Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün Tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm.”

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti




Ölkəmizdə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) yüksək səviyyəli və möhtəşəm təşkili tarixi hadisə kimi yaddaşlarda qalacaq. Azərbaycan tarixinə yazılan bu qələbənin də müəllifi Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev oldu. Bu etimad Azərbaycan dövlətinin və Liderinin beynəlxalq müstəvidə təsdiqini tapmış yüksək inam, qətiyyət və gücünün təntənəsidir.

**Elbrus İsayev**
Naxçıvan Dövlət Universitetinin rektoru

# "İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"

# COP29 NDU

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyun ayında Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış mühüm beynəlxalq sazişdir. Bu konvensiya, iqlim dəyişikliyi ilə mübarizə və onun təsirlərinin yüngülləşdirilməsi istiqamətində qlobal əməkdaşlığın əsasını qoymuşdur. Sazişin əsas məqsədi atmosferdə istixana qazlarının konsentrasiyasını təhlükəsiz səviyyədə saxlamaqla, iqlim sisteminin insan fəaliyyəti ilə əlaqədar təhlükəli dəyişikliklərinin qarşısını almaqdır.

Konvensiyanın ali qərarverici orqanı olan COP (Conference of Parties – Tərəflər Konfransı), iqlim dəyişikliyi ilə bağlı qəbul edilən qərarların icrasına nəzarət edir və yeni beynəlxalq razılaşmaların formalaşdırılmasında əsas rol oynayır. Tərəflər Konfransı, Konvensiyaya üzv olan 198 ölkəni özündə birləşdirir və bu platforma dövlətlərin iqlim dəyişikliyi ilə mübarizədə kollektiv səylərini gücləndirməyə imkan yaradır.

COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində keçirilmişdir. Həmin dövrdən bəri hər il keçirilən bu konfrans, dövlətlər arasında iqlim dəyişikliyi mövzusunda qarşılıqlı razılaşmaların əldə olunması üçün əvəzsiz bir platforma olmuşdur.




COP-un əsas katibliyi Bonn şəhərində yerləşir. Eyni zamanda, COP-un sədrlik sistemi rotasiya əsasında BMT-nin beş əsas regionu arasında paylaşılır: Afrika, Asiya, Latın Amerikası və Karib Hövzəsi, Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər). Bu yanaşma konfransın ədalətli və qlobal xarakterini təmin edir.

Azərbaycanın COP29-a ev sahibliyi etməsi, Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında qərarlaşdırılmışdır. Bu mühüm hadisə, Azərbaycanın qlobal miqyasda yaşıl iqtisadiyyata keçid strategiyasını və iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki səylərini əks etdirir. COP29 konfransı, 2024-cü ildə Azərbaycanın ən önəmli beynəlxalq tədbirlərindən biri olmaqla yanaşı, ölkənin qlobal ekoloji təşəbbüslərə töhfə vermək öhdəliyini də vurğulayır.

Azərbaycanın bu konfransa ev sahibliyi etməsi, ölkənin yaşıl texnologiyalara, bərpa olunan enerji mənbələrinə və davamlı inkişaf modellərinə keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirilir. Eyni zamanda, bu tədbir Azərbaycan üçün öz nailiyyətlərini nümayiş etdirmək və qlobal iqlim siyasətində lider mövqeyə iddia etmək üçün unikal bir imkan yaradır.

Naxçıvan Dövlət Universiteti, Azərbaycanın COP29 konfransına ev sahibliyi etməsi çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində fəal iştirak edir. Universitet, iqlim mövzusunda elmi araşdırmalar, innovativ texnologiyaların tətbiqi və ekoloji maarifləndirmə sahəsində həyata keçirdiyi layihələrlə ölkənin yaşıl iqtisadiyyata keçid prosesinə töhfə verir.

NDU, COP29-un əsas prinsiplərinə uyğun olaraq, gənc tədqiqatçıların və tələbələrin iqlim dəyişikliyinin təsirlərinin azaldılması üzrə təhsil almalarını təmin edir. Universitetdə keçirilən beynəlxalq simpoziumlar və elmi forumlar vasitəsilə qlobal əməkdaşlıq üçün yeni perspektivlər açılır.

Bu təşəbbüslər həmçinin NDU-nun davamlılıq üzrə qlobal liderlik iddiasını dəstəkləyir və regionda dayanıqlı inkişafın təşviqinə xidmət edir. COP29-un əsas müzakirə mövzularını universitetin tədqiqat proqramlarına inteqrasiya etməklə NDU, qlobal və yerli səviyyədə ekoloji problemlərin həllinə töhfə verməyi qarşısına məqsəd qoyur.

# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

Naxçıvan Dövlət Universiteti 2024-cü ildə COP29 istiqamətində universitetdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin fəaliyyət planını hazırlamış və 15 yanvar 2024-cü il tarixdə təsdiq etmişdi. Bu plana əsasən, 2024-cü ilin noyabr ayında “Orqanik Naxçıvan” I Respublika Elmi Konfransı və iyun ayında “Naxçıvan Muxtar Respublikası Biomüxtəlifliyinin Dayanıqlılığının Təmin Edilməsində Yeni Çağırışlar” adlı Beynəlxalq Elmi-Praktiki Konfranslar keçirilmiş, iqlim dəyişiklikləri, karbon emissiyasının 1.5-ə çəkilməsinə dair tədqiqatlar aparılmış və yaşıl enerji fəaliyyətləri dəstəklənmişdi.

Konfrans çərçivəsində Action Hub (fəaliyyət habı) formatında debatlar, xüsusi təqdimatlar, iqlim fəaliyyətinə dair həll yolları üzrə müsabiqələr, oyunlar, interaktiv fəaliyyətlər və rəqəmsal nümayişlər təşkil edilmişdir.





13 mart 2024-cü il tarixində Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər, Gənclər və İdman, Təhsil nazirliklərinin və Naxçıvan Dövlət Universitetinin birgə əməkdaşlığı ilə “Yaşıl dünya könüllüləri” proqramına start verilib.

Naxçıvan Biznes Mərkəzində COP29 könüllü qrupuna qatılan gənclərlə görüş keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirinin müavini Məcid Seyidov və Ekologiya və Təbii Sərvətlər Nazirinin müavini Xanlar Mustafayev iştirak edərək, proqramın məqsəd və əhəmiyyəti barədə məlumat verib, gənclərin suallarını cavablandırıblar.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ilə əlaqədar ölkə miqyasında ətraf mü-hitin sağlamlaşdırılması, yaşıl-lıqların artırılması və dayanıqlı enerji mənbələrindən istifadəyə dair işlər aparıldığı qeyd edilib. Azərbaycanın COP29 tədbirinə ev sahibliyi etməsinin əhəmiyyəti vurğulanaraq, muxtar respublikada bu istiqamətdə həyata keçirilən layihələr haqqında məlumat verilib.

COP29 könüllüləri ilə keçirilən bu görüş gənclərin ekoloji maarif-ləndirilməsinə və iqlim dəyişikliyi ilə mübarizəyə aktiv şəkildə cəlb edilməsinə imkan yaratdı. Bu tədbir, həm gənclərin ekoloji problemlər haqqında məlumatlılığını artırmaq, həm də onların ideyalarını yaşıl təşəb-büslərə çevirmək üçün bir platforma təmin etdi. Könüllülərin bilik və ba-carıqlarının bu layihələrə yönlən-dirilməsi, regionda davamlı inkişaf və ekosistemin qorunması məqsədlərinə töhfə vermək üçün mühüm bir addım hesab olunur. Bu cür təşəbbüslər Azər-baycanın qlobal iqlim siyasətində aktiv rol oynama öhdəliyini bir daha təsdiq edir.



# *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU

16 mart 2024-cü il tarixində Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" və "COP29" tədbirləri çərçivəsində genişmiqyaslı ağacəkmə aksiyası həyata keçirilmişdir. Bu aksiya ekoloji tarazlığın bərpası, karbon emissiyasının azaldılması və biomüxtəlifliyin artırılması istiqamətində strateji məqsədlərə xidmət edir. Tədbir zamanı meşə və meyvə tinglərinin əkilməsi ekosistemin dayanıqlığının gücləndirilməsi və yaşıl infrastrukturun genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Naxçıvan Dövlət Universitetinin rektoru və əməkdaşları aksiyada iştirak edərək 245 ədəd meşə və meyvə tingi əkmişdir. Bu fəaliyyət universitetin ətraf mühitin mühafizəsi üzrə elmi və praktik töhfələrinin bir nümunəsi olmaqla yanaşı, davamlı inkişaf hədəflərinə dəstək məqsədilə görülən işlərin sistematik xarakterini bir daha təsdiq etmişdir.








12

COP29: Azərbaycanın beynəlxalq miqyasda artan gücü və nüfuzunun növbəti təzahürü

Prezident İlham ƏLİYEV:

24 aprel 2024-cü il tarixində Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayevin "COP29 və Azərbaycan üçün Yaşıl Baxış: Azərbaycan sülh və əməkdaşlıq məkanı kimi" adlı məqaləsi "Şərq qapısı" qəzetində dərc edilmişdir. Bu məqalə, COP29-un əhəmiyyətini, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə qlobal təşəbbüslərdəki iştirakını və yaşıl iqtisadiyyata keçid strategiyasını əhatə edən geniş mövzuları əks etdirir.

Məqalədə Azərbaycanın ekoloji diplomatiyası, iqlim dəyişikliyi ilə bağlı qəbul etdiyi qlobal öhdəliklər və bu çərçivədə həyata keçirilən milli strategiyalar ətraflı şəkildə təhlil edilmişdir. Arzu Abdullayev Azərbaycanın beynəlxalq əməkdaşlıq və sülh təşəbbüslərindəki fəal rolunu vurğulayaraq, ölkənin yaşıl inkişaf istiqamətindəki mühüm nailiyyətlərini və gələcəkdə bu sahədəki potensialını önə çıxarmışdır.

Qeyd olunmuşdur ki, COP29 Azərbaycanın yalnız ekoloji və iqlim məsələlərində deyil, eyni zamanda regional və beynəlxalq səviyyədə əməkdaşlığın gücləndirilməsində mühüm bir platforma təşkil edir.

Arzu Abdullayevin bu məqaləsi, eyni zamanda, COP29-un yerli və beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini vurğulamaqla yanaşı, Azərbaycanın bu mötəbər tədbirə ev sahibliyi etməsinin ölkənin beynəlxalq nüfuzunun artırılmasında necə bir təsir gücünə malik olduğunu göstərmişdir. Məqalə həmçinin gənclərin, universitetlərin və elmi dairələrin bu qlobal təşəbbüslərə daha aktiv şəkildə cəlb olunmasının vacibliyinə diqqət çəkmişdir.

# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*


AZƏRBAYCAN

AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024

COP29: hazırlıqlar sürətlənir

AZERBAIJAN COP29 HOST

Azərbaycanın beynəlxalq miqyasda artan güc və nüfuzunun növbəti təzahürü

**Azərbaycanın beynəlxalq miqyasda artan güc və nüfuzunun növbəti təzahürü**

Bu gün Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdən biridir. Cənab İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli də qoyuldu, 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlı sənəd qəbul edildi. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə bağlı qarşıya yeni hədəflər qoydu. Bu hədəfləri uğurla icra edən Azərbaycan ötən dövrdə ən böyük layihələrə evsahibliyi etdi.

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə növbəti dəfə böyük etimad və inamın göstəricisidir. Dünya birliyinin Azərbaycana göstərdiyi inam və etimad isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Ölkəmiz artıq dünyada söz sahibinə çevrilib. Faktlar da təsdiqləyir ki, son 20 ildə dövlətimizin başçısının həyata keçirdiyi müstəqil siyasət nəticəsində Azərbaycanın reytinqi artıb və dünya miqyasında çox güclü mövqelərə sahib olub. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə ən tutarlı cavabdır.

Bu reallıqdır ki, qələbədən qısa vaxt keçəndən sonra da ölkəmiz beynəlxalq tədbirlərin, eləcə də nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrildi. Bunun nəticəsidir ki, mötəbər beynəlxalq təşkilatların rəhbərləri öz tədbirlərinin Azərbaycanda keçirilməsini təsadüfən müəyyənləşdirmirlər. Son illər Azərbaycanın dünyada sabit məkan kimi tanınması da buna imkan verir.

24 aprel 2024-cü ildə ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev dərinməzmunlu çıxışında: "...Biz uğura uğur əlavə edirik və ən azı həm Azərbaycanda, həm də regionda hər kəs anlayır ki, bunlar təsadüfi hadisələr deyil. Bütün bu işlər düşünülmüş siyasətin, strategiyanın, düzgün taktikanın və siyasətimizin, diplomatiyamızın bir sıra digər aspektləri üzərində qurulub... Atdığımız addımların nəticələrinin daha bir nümunəsi sərhədin delimitasiyasıdır. Əlbəttə, iki ölkə, xüsusilə də iki xalq arasında daha çox etimadın artırılması üçün görüləcək işlər çoxdur. Lakin burada əsas məsələ tendensiyanın nədən ibarət olması, hansı istiqamətdə irəliləməyimizdir və söylədiklərimin bariz nümunələri var. COP29-un Azərbaycanda keçirilməsi münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsidir" - deyə əsas reallıqları diqqətə çatdırdı. Dövlət başçısı eyni zamanda COP29-a Azərbaycanın evsahibliyi etməsini ölkəmizin ekoloji problemlərlə ciddi məşğul olmasının, 1994-cü ildən bəri bütün neft əməliyyatlarının, beynəlxalq ətraf mühit mühafizəsi standartlarına əsasən aparılmasının, investorların dünyanın aparıcı şirkətlərinin olması və ətraf mühitə diqqətlə yanaşmanın nəticəsində mümkün olduğunu bəyan etdi.

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu evsahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə artırıb. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur. Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə prosesinə ciddi töhfə verən ölkə kimi tanınması da onun COP29-a evsahibliyi etmək imkanını daha da gücləndirdi. Azərbaycanın bu sahədə uzun illərdir həyata keçirdiyi ardıcıl siyasət və layihələr, enerji mənbələrinin inkişaf etdirilməsi, o cümlədən külək və günəş enerjisi stansiyalarının qurulması baxımından gördüyü böyük işlər bəhrəsini verdi.

# “İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”

# COP29 NDU

17-19 may 2024- cü il tarixlərində Naxçıvan Dövlət Universiteti və Erzurum Teknik Universitetinin birgə əməkdaşlığı çərçivəsində “COP 29”-a həsr olunan “Agrotech” Hackathon təşkil edilmişdir. Hackathonun məqsədi gənc tədqiqatçılarda kənd təsərrüfatı texnologiyalarına yönəlmiş ideyaların inkişafına nail olmaqdır. Proqram çərçivəsində Erzurum Teknik Universiteti və Naxçıvan Dövlət Universiteti tələbələrinin iştirakı ilə problemlərlə bağlı qalıcı və əlavə dəyər yaradan texnologiyaya əsaslanan ideyaların inkişaf etdirilməsi hədəflənmişdir. Bu çərçivədə iştirakçılar 72 saat ərzində müxtəlif on-line vebinar, panel və təlimlərdə iştirak etmişdir. Daha sonra MVP mərhələsində fərdi və komanda şəklində sözügedən problemin həll yollarına dair layihələr təqdim edilmişdir. Ümumilikdə 250 iştirakçının yer aldığı hackathonda 37 layihə fərdi və komanda şəklində təqdim edilmişdir. Layihənin son günündə münsiflər heyəti tərəfindən təqdim edilmiş layihələr dəyərləndirilmiş və 10 ən yaxşı layihə seçilmişdir.

Naxçıvan Dövlət Universitetinin rektoru və əməkdaşları aksiyada iştirak edərək 245 ədəd meşə və meyvə tingi əkmişdir. Bu fəaliyyət universitetin ətraf mühitin mühafizəsi üzrə elmi və praktik töhfələrinin bir nümunəsi olmaqla yanaşı, davamlı inkişaf hədəflərinə dəstək məqsədilə görülən işlərin sistematik xarakterini bir daha təsdiq etmişdir.

Qalib layihə komanda üzvlərinin qarşılıqlı olaraq Naxçıvan Dövlət Universiteti və Erzurum Teknik Universitetinə bir həftə müddətində səfərlər təşkil ediləcək, hackathon prosesindən sonra layihələrin inkubasiya mərkəzləri və regional potensial əməkdaşlıq təşkilatları ilə uyğunlaşdırılması və kənd təsərrüfatı sektorunda tətbiq edilməsi nəzərdə tutulur.



# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

Diqqətinizə çatdıraq ki, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin tələbələri - Nadir Hacıyev, Nurlan Qurbanov və Nuray İsmayılovanın komanda olaraq irəli sürdükləri “SmartAgri” layihəsi hakatonda 3-cü yerə layiq görülüb. Kənd təsərrüfatında su və gübrə istifadəsini optimallaşdırmaqla səmərəli şəkildə resursları artırmaq və istifadə etmək sözügedən layihənin əsas hədəfidir.

Qeyd edilən Hackathon çərçivəsində kənd təsərrüfatı layihələrinin icrası zamanı ekologiyaya və su ehtiyatlarına maksimum dərəcədə az zərər verilməsi prosesi diqqətdə saxlanılır. Bu çərçivədə qarşılıqlı əməkdaşlığın nəticəsi olaraq hər iki universitetin yaşıl dünya naminə fəaliyyətindən əldə olunan təcrübənin bölüşdürülməsi də nəzərdə tutulmuşdur.















# *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU

20 may 2024-cü il tarixində Naxçıvan Muxtar Respublikasının "Zəngəzur Milli Parkı"nda yerləşən Batabat yaylağında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli nümayəndəliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Konfrans Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə, "Yaşıl dünya naminə həmrəylik ili"nə və COP29-a həsr olunmuşdur.

Konfrans çərçivəsində elmi çıxışlar dinlənilmiş, Naxçıvanın ekoloji mühiti və biomüxtəlifliyi mövzusunda məruzələr edilmişdir. Tədbir zamanı həmçinin Batabat ərazisində yaşıllaşdırma aksiyası təşkil olunmuş, ağacəkmə kampaniyası çərçivəsində əkilən meşə və meyvə tingləri ilə ətraf mühitin sağlamlaşdırılmasına töhfə verilmişdir. Eyni zamanda, tələbələrin iştirakı ilə təmizlik aksiyası keçirilmiş və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri tərəfindən Batabatın təbiətinə dair etüdlər hazırlanmışdır.





# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

Bu konfrans həm ekoloji problemlərə diqqəti artırmaq, həm də Heydər Əliyevin yaşıllaşdırma ənənələrini yaşatmaq baxımından böyük əhəmiyyət kəsb etmişdir. COP29 çərçivəsində keçirilən tədbir Azərbaycanın qlobal ekoloji təşəbbüslərdəki mövqeyini bir daha nümayiş etdirmişdir.













## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU











# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*




20-21 may 2024-cü il tarixlərində Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Ağbulaq istirahət mərkəzində “COP29”-a həsr olunan “SDG Kamp” ekoloji düşərgəsi keçirilmişdir. Düşərgənin əsas məqsədi, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 Dayanıqlı İnkişaf Məqsədi (SDG) haqqında maarifləndirmə işini aparmaq və iştirakçıları bu məqsədlərin əhəmiyyəti barədə məlumatlandırmaq olmuşdur.

Düşərgə çərçivəsində iştirakçılara “2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik”də əks olunan məqsədlərin universal xarakter daşıdığı, yoxsulluğun bütün formalarına son qoymaq, bərabərsizliklərlə mübarizə aparmaq və iqlim dəyişikliyinin təsirlərini azaltmaq kimi qlobal çağırışlar barədə məlumat verilmişdir. Tədbir zamanı iştirakçılar SDG-lərin həyata keçirilməsində fərdi və kollektiv töhfə verməyin vacibliyini öyrənmişlər.

Düşərgə çərçivəsində Naxçıvan Dövlət Universitetinin təlimçiləri tərəfindən “Karbon ayaqizi və onun azaldılması yolları,” “Ekoloji startapların tərtibi,” “Sağlam yaşam prinsipləri,” “Ərazinin ekoloji qiymətləndirilməsi simuliyasiyası” və “Tullantıların idarə olunması” mövzularında təlimlər təşkil edilmişdir. Bu təlimlər yalnız ekoloji problemlərin elmi və praktik həlli yollarını təqdim etməklə kifayətlənməmiş, həm də iştirakçıların ekoloji biliklərini genişləndirərək onların bu sahədə daha aktiv iştirakını təşviq etmişdir.

Düşərgənin sonunda iştirakçılar əldə etdikləri bilikləri praktik tətbiqetmə imkanları ilə birləşdirərək, dayanıqlı inkişaf məqsədlərinə töhfə vermək üçün öz layihələrini formalaşdırmış və təqdim etmişdir. “SDG Kamp” yalnız maarifləndirmə tədbiri deyil, həm də COP29 çərçivəsində regionda ekoloji şüurun artırılmasına yönəlmiş mühüm bir təşəbbüsə xidmət etmişdir.

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

# COP29 NDU



























# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

27 may 2024-cü il tarixdə “COP29”-un Azərbaycanda keçirilməsi ilə əlaqədar olaraq Naxçıvan Dövlət Universiteti Memarlıq və mühəndislik fakültəsində “Azərbaycanın yaşıl enerji potensialı” mövzusunda seminar keşirilmişdir. Seminarı giriş sözü ilə fakültənin dekanı professor Cavanşir Zeynalov açaraq COP29, onun məqsədi və əhəmiyyəti haqqında məlumat vermiş, seminarın işinə uğurlar arzulamışdır. Sonra Meliorasiya və ekologiya mühəndisliyi kafedrasının müdiri dosent Cabbar Nəcəfovun “İqlim dəyişikliklərinin mənfi təsirinin azaldılmasında problemlərin peyk görüntüləri vasitəsilə həlli”, Elektroenergetika kafedrasının müəllimləri Sevinc Novruzovanın “Azərbaycanın alternativ enerji mənbələri” və Gülşən Məmmədovanın “Alternativ enerji mənbələrinin hüquqi çərçivədə inkişafı və onun perspektiv imkanları”, Meliorasiya və ekologiya mühəndisliyi kafedrasının müəllimi Akim Axundovun “İqlim dəyişikliyinin monitorinqi və onunla mübarizədə kosmik texnologiyalardan istifadə: Azərbaycan Kosmik Agentliyinin strategiyası”, Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimləri Səriyyə Qasımovanın “İqlim təsirinin azaldılması üçün ən müasir texnologiyalar”, Şəfiqə İmanovanın “İqlim dayanıqlığında yeni texnologiyaların rolu” haqqında məruzələri dinlənilmişdir. Məruzələr ətrafında müzakirələr aparılmış, tələbələrin sualları cavablandırılmışdır. Seminarda həmçinin Ekologiya mühəndisliyi ixtisasının tələbələri Turan Sadiqli “Neytron aktivləşmə enerjisi ilə havanın ekoloji təyini”, Tamara Qurbanova “Peyk görüntüləri vasitəsi ilə iqlim dəyişməsinin kənd təsərrüfatına təsirlərinin öyrənilməsi”, Südabə Əsgərova “Peyk görüntüləri vasitəsi ilə iqlim dəyişməsinin ekologiyaya təsirlərinin öyrənilməsi” mövzusunda tədqiqat xarakterli çıxışlar etmişlər.









# "İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"

# COP29 NDU

03 iyun 2024-cü ildə Naxçıvan Muxtar Respublikasında "Biomüxtəlifliyin Dayanıqlığının Təmin Edilməsində Yeni Çağırışlar (COP29) - Yaşıl Dünya və İnsan Sağlamlığı" mövzusunda beynəlxalq elmi-praktiki konfrans təşkil olunmuşdur. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunan bu tədbir, ekoloji dayanıqlılıq və biomüxtəlifliyin qorunması istiqamətində yeni ideya və həll yollarını müzakirəyə çıxarmaq məqsədi daşıyırdı.

Konfransın açılış mərasimi Nəbatət bağında keçirilmişdir. Tədbir, Azərbaycan Respublikasının biomüxtəliflik siyasətinə uyğun olaraq təbii sərvətlərin mühafizəsi və ekosistemlərin dayanıqlığının artırılması istiqamətində həyata keçirilən genişmiqyaslı təşəbbüslərin müzakirəsinə imkan yaratmışdır.

Konfrans çərçivəsində həmçinin Botanika İnstitutu ilə Naxçıvan Dövlət Universitetinin birgə təşkil etdiyi kitab sərgisi böyük marağa səbəb olmuşdur. Tədbirin əhəmiyyətli bir hissəsi olaraq, Naxçıvan Dövlət Universiteti və Botanika İnstitutu arasında imzalanmış əməkdaşlıq memorandumu, elmi-tədqiqat işlərinin genişləndirilməsi, kadr potensialının inkişafı və elmin tədrislə inteqrasiyasını gücləndirmək məqsədini daşımışdır.

Tədbir iki gün davam etmiş və 8 fərqli bölmədə işini davam etdirərək iştirakçıların biomüxtəliflik və davamlı inkişaf mövzularında fikir mübadiləsi aparmasına şərait yaratmışdır. Bu konfrans, biomüxtəlifliyin qorunması və ekoloji problemlərin həlli istiqamətində qlobal və regional səviyyədə irəliyə doğru atılmış mühüm bir addım kimi qiymətləndirilmişdir.







# COP29 NDU

## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*









*"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU







# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*











# “İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”

# COP29 NDU

Bildiyimiz kimi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2024-cü ilin ölkədə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Sərəncam imzalayıb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub.

Bununla bağlı olaraq Naxçıvan Dövlət Universitetində Tədbirlər Planı hazırlanaraq bu istiqamətdə işlərə başlanıb. Görülən işlərin davamı olaraq 09.07.2024-cü ildə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Yaşıl dünya naminə həmrəylik ili” adlı kitab sərgisi açılıb.








# COP29 NDU

## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

15 oktyabr 2024-cü ildə Naxçıvan Dövlət Universiteti, Naxçıvan MR Gənclər və İdman Nazirliyi, Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkil etdiyi Eko düşərgə keçirilmişdir. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında keçirilən bu layihə, ekologiya sahəsində biliklərin artırılması və gənclərin ekoloji şüurunun formalaşdırılması məqsədi ilə həyata keçirilmişdir.

Eko düşərgədə, iştirak edən tələbələrə "ekologiya və biz" mövzularında Naxçıvan Dövlət Universiteti Meliorasiya və ekologiya mühəndisliyi kafedrasının müəllimi Hüseyn İmanov təlimçi qismində iştirak etmişdir.

Təlimdə ekosistemlərin qorunması, təbiətə olan məsuliyyətimiz və ekoloji balansın önəmi ilə bağlı fikir mübadiləsi aparıldı. Gənclərin maraqlı sualları və aktiv iştirakları, bu sahəyə olan həvəsin nə qədər yüksək olduğunu bir daha sübut etdi.

Eko düşərgə zamanı keçirilən müxtəlif fəaliyyətlər və müzakirələr, gəncləri təbiətə daha yaxınlaşdırdı. Bu cür təşəbbüslər gənclərin ekoloji məsələlərə olan həvəsini artırar və gələcəkdə daha geniş iştirakçı kütləsi ilə davam edəcəkdir.










# "İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"

COP29 NDU

Naxçıvan Dövlət Universteti Meliorasiya və ekologiya mühəndisliyi kafedrasının müəllimi Hüseyn İmanovun və bir sıra NDU-nu təmsil əməkdaş və tələbələrin Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" və "COP29" tədbirləri çərçivəsində bir sıra məqalələri qəzet və xəbər portallarında işıqlandırılmışdır.

1. "COP29" və "yaşıl enerji": Azərbaycanda bu sahədə görülən işlər - Respublikamızın təbii-coğrafi mövqeyi, relyefi, iqlim şəraiti, günəş, torpaq, külək, su, biokütlə təbii enerjiyaratma potensialı baxımından zəngindir və bu, ölkəmizdə ekoloji cəhətdən təmiz alternativ və bərpaolunan enerji mənbələrindən düzgün və səmərəli istifadə edilməsinə geniş imkanlar yaradır. yazdığım məqalədə Azərbaycanda Alternativ enerjilərdə görülən işlər barəsində məqaləmi sizlərə təqdim edirəm. Şərq Qapısı, 29 avqust 2024-cü il

2. Qlobal istiləşmənin bəşəriyyətə olan təsirinin qarşısı necə alınmalı - Bu məqalədə qlobal istiləşmənin bəşəriyyətə olan təsirləri və onun qarşısını almaq üçün atılan qlobal addımlar müzakirə olunur. Məqalə, xüsusilə 2024-cü ildə keçiriləcək "COP29" konfransına və burada müzakirə olunacaq tədbirlərə diqqət yetirir. Azərbaycanın qlobal istiləşməyə qarşı milli səviyyədə gördüyü tədbirlər, o cümlədən bərpa olunan enerji mənbələrinə keçid, su resurslarının qorunması və meşə sahələrinin genişləndirilməsi də geniş şəkildə təhlil edilir. Məqalə, qlobal istiləşmənin təsirlərini azaltmaq üçün beynəlxalq əməkdaşlığın və milli strategiyaların əhəmiyyətini vurğulayır. "Naxçıvan xəbərləri" informasiya agentliyi – 14 oktyabr 2024-cü il

3. "Yaşıl" Azərbaycanın gələcəyi-ekoloji məsuliyyət və insan faktoru - Məqalə, "Yaşıl Azərbaycanın gələcəyi - Ekoloji məsuliyyət və insani faktor" mövzusunu əhatə edir. Ekoloji problemlərin artması fonunda Azərbaycanın ekoloji siyasətini, insanların ekoloji məsuliyyətini və dayanıqlı inkişaf prinsiplərini müzakirə edir. Məqalə, ekosistemlərin mühafizəsi və bioloji müxtəlifliyin qorunması üçün vacib olan dövlət və cəmiyyət əməkdaşlığını vurğulayır. Eyni zamanda, gənclərin ekoloji bilincinin artırılmasının əhəmiyyətini qeyd edir. Məqsəd, Azərbaycanın yaşıl gələcəyinin təmin edilməsində insan faktoru və məsuliyyətinin rolunu diqqətə çatdırmaqdır. Respublika qəzeti, 20 oktyabr 2024, "Naxçıvan xəbərləri" informasiya agentliyi – 20 oktyabr 2024-cü il

4. Karbonsuz enerji keçidinin strategiyaları və çətinlikləri - iqlim dəyişikliyi və onun təsirlərinin azaldılması məqsədilə qlobal səviyyədə həyata keçirilən karbonsuz enerji keçidi prosesini analiz edir. Azərbaycan və dünya kontekstində enerji sektorundakı dəyişiklikləri, Dayanıqlı İnkişaf Məqsədlərinin icrasını və COP çərçivəsindəki hədəfləri nəzərə alaraq, ölkəmizin ekoloji və iqtisadi potensialı dəyərləndirilir. Karbonsuz enerjiyə keçidin strateji çətinlikləri və gələcək üçün yaratdığı imkanlar təhlil edilərək, Azərbaycanın davamlı inkişaf perspektivlərinə töhfəsi vurğulanır. "Diaspor.info" informasiya portalı – 28 oktybar 2024-cü il

5. COP29-Gənclərin ekoloji məsuliyyətini gücləndirmək üçün bir imkandır - COP29, gənclərin ekoloji məsuliyyətini gücləndirmək və onlara davamlı inkişaf məsələlərində fəal rol oynamaq üçün vacib bir platformadır. Bu tədbir, gəncləri ekoloji problemlərin həllində iştirak etməyə təşviq edir və onları iqlim dəyişikliyi, təbii ehtiyatların qorunması və ekosistemlərin davamlılığı mövzularında maarifləndirir. Azərbaycanın da iştirak etdiyi COP29, "Yaşıl Dünya üçün Həmrəylik İli" çərçivəsində ekoloji məsuliyyətin gücləndirilməsi və gənclərin qlobal iqlim siyasətlərinə təsir imkanlarının artırılması məqsədini güdür. Gənclər bu tədbirlər vasitəsilə həm yerli, həm də qlobal səviyyədə ətraf mühitin qorunmasına töhfə verə biləcək yeni ideyalar və strategiyalar irəli sürə bilərlər. COP29, həmçinin gəncləri iqlim diplomatiyasına cəlb edərək, gələcək nəsillər üçün daha yaşıl və davamlı bir dünya qurulmasına yönəlik müsbət dəyişikliklərə zəmin yaradır. Respublika qəzeti, Şərq Qapısı qəzeti, "Diaspor.info" informasiya portalı, "Naxçıvan xəbərləri" informasiya agentliyi - noyabr 2024-cü il

6. COP29-la sinxronlaşdırılmış "yaşıl enerji" keçidi - Məqalə "Gələcəyin enerjisi: Azərbaycanın COP29-la sinxronlaşdırılmış Yaşıl Enerji inkişafı" başlığını daşıyır və Azərbaycanın enerji strategiyası, xüsusilə COP29-un enerji təşəbbüslərinə necə cavab verdiyi ilə bağlı məlumat yazdım. Məqalədə həmçinin, ölkəmizin yaşıl enerji sahəsindəki irəliləyişlərini və beynəlxalq platformalarda, xüsusən COP29-da təklif etdiyi təşəbbüsləri işıqlandırır. Azərbaycanın təmiz enerji sahəsindəki strateji addımlarına dair əhəmiyyətli məlumatlar və gələcək planlar haqqında analizləri əhatə edir. Respublika qəzeti, "Diaspor.info" informasiya portalı - 19 noyabr 2024-cü il

# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

7. COP29 qlobal iqlim platformasıdır - İqlim dəyişikliyi ilə mübarizə təkcə ekoloji bir problem deyil, həm də mənəvi öhdəlikdir. İqlim dəyişikliyi ilə mübarizə yalnız dövlətlərin deyil, hər bir fərdin, hər bir cəmiyyətin və bütün dövlətlərin birgə vəzifəsi olmalıdır. Azərbaycan da bu sahədə qlobal səyləri dəstəkləyir, iqlim ədalətinə nail olmaq və ədalətli həllər tapmaq üçün beynəlxalq konsensusun əldə edilməsinə töhfə verir. Bu baxımdan COP29 ölkələr arasında həmrəyliyi gücləndirmək üçün qlobal səviyyədə bir platformadır. Xalq qəzeti – 17 noyabr 2024



RESPUBLİKA

“Yaşıl” Azərbaycanın gələcəyi – ekoloji məsuliyyət və insan faktoru



RESPUBLİKA

Azərbaycan ev sahibliyi etdiyi beynəlxalq tədbirlərlə hər zaman dünyanın diqqət mərkəzində olub

COP29-la sinxronlaşdırılmış “yaşıl enerji” keçidi



# COP29 qlobal iqlim platformasıdır

**İqlim dəyişikliyi ilə mübarizə təkcə ekoloji bir problem deyil, həm də mənəvi öhdəlikdir. İqlim dəyişikliyi ilə mübarizə yalnız dövlətlərin deyil, hər bir fərdin, hər bir cəmiyyətin və bütün dövlətlərin birgə vəzifəsi olmalıdır. Azərbaycan da bu sahədə qlobal səyləri dəstəkləyir, iqlim ədalətinə nail olmaq və ədalətli həllər tapmaq üçün beynəlxalq konsensusun əldə edilməsinə töhfə verir. Bu baxımdan COP29 ölkələr arasında həmrəyliyi gücləndirmək üçün qlobal səviyyədə bir platformadır.**

Bu gün dünya ölkələrinin və onların liderlərinin əsas öhdəliklərindən biri dayanıqlı inkişaf konsepsiyalarına üstünlük verərək bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atmaqdır. Bəşəriyyətin gələcəyi üçün nəzərdə tutulan strategiyalar qlobal problemlərin həllində ən effektiv vasitələrdir. Lakin bu hədəflərə çatmaq heç də asan deyil, çünki dünyanın müxtəlif bölgələrində problemlər fərqli şəkildə özünü göstərir və təxirəsalınmaz tədbirlər tələb edir. COP29-un Bakıda keçirilməsi məhz bu baxımdan böyük əhəmiyyət daşıyır.

Dünyanın 196 ölkəsindən olan 72 min nəfərin iştirakı ilə keçirilən COP29 iqlim problemlərinin həllində unikal yanaşmalar ortaya qoyur. Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi, onun iqlim dəyişikliyi ilə qlobal mübarizədəki prinsipial mövqeyini və beynəlxalq səviyyədə artan nüfuzunu göstərir. Azərbaycanın qlobal iqlim siyasətində fəal iştirakı onu Qərb və digər qlobal güclərlə dayanıqlı enerji təhlükəsizliyi və ekoloji əməkdaşlıq sahələrində mühüm tərəfdaşa çevirir. Bu yanaşma, həm də ölkəmizə iqtisadi dividendlər gətirməklə yanaşı, onun regionun enerji xəritəsində strateji mövqeyini möhkəmləndirir.

Noyabrın 12-də COP29-un Liderlər Sammitində Prezident İlham Əliyev çıxış edərək Azərbaycanın qlobal səylərə verdiyi dəstəyin əhəmiyyətini bir daha vurğuladı. Azərbaycanın COP29-a ev sahibliyi etməsi, ölkəmizə hörmət və beynəlxalq arenada fəal rolunun yüksək qiymətləndirilməsidir. Şimal, Cənub, Qərb və Şərqin qovuşduğu bir məkanda yerləşən ölkəmiz enerji, mədəniyyət və daşımalar sahəsində müxtəlif beynəlxalq tərəfdaşlarla geniş əlaqələr qurur. Sammitin ilk günü dünya ölkələri karbon krediti bazarı üçün BMT-nin yeni qaydalarını qəbul edərək dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün yeni bir səhifə açdılar.

COP29 Azərbaycan üçün təkcə bir iqlim tədbiri deyil, gələcək üçün dayanıqlı və innovativ enerji strategiyalarını inkişaf etdirmək və ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirmək üçün bir fürsətdir. Məlum olduğu kimi, son illər Azərbaycan bərpaolunan enerji mənbələrinin potensialını inkişaf etdirməyə xüsusi diqqət göstərir. Xüsusilə külək və günəş enerjisindən istifadənin genişləndirilməsi daxili ehtiyacları ödəməklə yanaşı, regionun enerjiyə olan tələbatını dayanıqlı şəkildə qarşılamağa imkan yaradır.

COP29 həm dövlət, həm də özəl sektor üçün “yaşıl” iqtisadiyyatın inkişafını sürətləndirmək və innovasiyaların genişləndirilməsi istiqamətində geniş imkanlar açır. Eyni zamanda, bu mühüm iqlim tədbiri Azərbaycanın xarici sərmayə üçün açıq və müasir texnologiyaların tətbiqi ilə yenilənən enerji sektorunun inkişaf etdirməsinə böyük töhfə verəcək.

COP29-un əsas prinsiplərindən biri də inklüzivlikdir. Bu tədbirdə hər kəsin səsinin eşidilməsi, xüsusilə həssas xalqların və neokolonializmdən əziyyət çəkən ölkələrin maraqlarının qorunması prioritetdir. Azərbaycan, Kiçik ada dövlətlərinin və iqlim dəyişikliyindən ən çox təsirlənən icmaların COP29-da fəal iştirakına xüsusi diqqət yetirir.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü rolunu oynamağa çalışır. COP29 vasitəsilə Azərbaycan, qitələrdən olan dövlətlər arasında əlaqələrin gücləndirilməsi və qarşılıqlı anlaşmanın təmin olunması istiqamətində səylər göstərir. Bu da ölkəmizi həm ekoloji, həm də geosiyasi mənada qlobal səviyyədə əhəmiyyətli mövqeyə yüksəldir.

*Hüseyn İMANOV,*
*Naxçıvan Dövlət Universitetinin müəllimi*

# "İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"

# COP29 NDU

07 noyabr 2024-cü ildə Naxçıvan Dövlət Universiteti, Azərbaycanın ekoloji dayanıqlılıq və orqanik istehsal mövzularında milli və beynəlxalq səviyyədə öndə getmək təşəbbüslərinin bir parçası olaraq, "Orqanik Naxçıvan" mövzusunda I Respublika Elmi Konfransına ev sahibliyi etmişdir. Bu tədbir təkcə elmi müzakirələrin aparıldığı platforma deyil, həm də Naxçıvanın ekoloji potensialının geniş şəkildə təqdim olunduğu bir məkan olmuşdur. Həmçinin qloballaşan dünyada qida təhlükəsizliyi və çatışmazlığının aradan qaldırılması məqsədilə səmərəli platforma kimi təqdim edilməsinə xidmət etmişdir.

Konfransın əsas məqsədi ekoloji dayanıqlılıq, orqanik kənd təsərrüfatı və qida təhlükəsizliyi sahələrində elmi yanaşmaların müzakirəsi və yeni həll yollarının təklif edilməsindən ibarət olmuşdur. Tədbirdə Naxçıvan Dövlət Universitetinin kollektivi ilə yanaşı, Botanika İnstitutu, Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, Bioresurslar İnstitutu və digər təşkilatların nümayəndələri geniş tərkibdə iştirak etmişdir.

Tədbirin giriş hissəsində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində həyata keçirilən layihələrdən danışaraq, universitetin müxtəlif elmi və tədris sahələrində əldə etdiyi nailiyyətləri vurğulamışdır. O, Kembric məktəbi, SABAH qrupları və ikili diplom proqramları haqqında konfrans iştirakçılarına məlumat vermişdir. Həmçinin Naxçıvanın ekoloji və təbii zəngin-liklərinin beynəlxalq səviyyədə tanıdılması məqsədilə gələcəkdə daha mühüm addımların atılacağını bildirmişdir.

Elmi konfrans çərçivəsində biomüxtəlifliyin qorunması, təbii sərvətlərin səmərəli istifadəsi və orqanik məhsulların ekoloji dəyərlərinin artırılması mövzularında təqdimatlar edilmişdir. Botanika İnstitutunun direktoru professor Səyyarə İbadullayeva, Bioresurslar İnstitutunun direktoru dosent İsmayıl Məmmədov və digər mütəxəssislər Naxçıvanın zəngin flora və fauna aləminin qorunmasının vacibliyini vurğulamışdır. Bu sahədə nəticəyönümlü səmərəli təkliflər verilmişdir. Həmçinin, konfransda qida təhlükəsizliyinin təmin edilməsi və ekoloji təmiz məhsulların istehsalı üzrə müvafiq elmi əsasların yaradılmasının əhəmiyyəti diqqətə çatdırılmışdır.



# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

Tədbir çərçivəsində elmi-tədqiqat fəaliyyətini daha da gücləndirmək məqsədilə müxtəlif təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsi planlaşdırılmışdır. Ümumilikdə, konfrans təkcə Naxçıvanın orqanik potensialının təqdimatı deyil, həm də bu sahədə aparılan tədqiqatların ölkə və beynəlxalq səviyyədə tətbiqinə yönəlmiş mühüm bir addım olmuşdur.

Konfrans üz-üzə və onlayn formatda 6 bölmədə keçirilmiş, 80-dən çox alim və tədqiqatçının iştirakı ilə 30-a yaxın mövzu ətrafında müzakirələr aparılmışdır. Tədbir çərçivəsində iştirakçılara sertifikatlar təqdim edilmişdir. “Orqanik Naxçıvan” konfransı yalnız elmi əlaqələri möhkəmləndirməklə kifayətlənməmiş, həm də Naxçıvanın ekoloji dayanıqlılıq və davamlı inkişaf sahəsindəki rolunu gücləndirmək üçün yeni bir platforma təqdim etmişdir.









# "İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"

# COP29 NDU

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan Baş Prokurorluğunun dəvəti ilə COP29 çərçivəsində keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyada iştirak etmişdir. Tədbirə Baş prokuror Kamran Əliyev, COP29-un Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini və daxili işlər naziri Şeyx Saif bin Zayed əl-Nəhyan, həmçinin bir çox digər beynəlxalq rəsmilər qatılıblar.

Bu sessiyada hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə birgə fəaliyyəti, ekoloji cinayətlərin qarşısının alınmasında beynəlxalq əməkdaşlığın vacibliyi bir daha önə çəkilib. COP29-un yüksək səviyyəli bu sessiyası ekoloji cinayətkarlığa qarşı qlobal səviyyədə koordinasiyalı fəaliyyətlərin zəruriliyini vurğulamaq baxımından mühüm platforma olmuşdur.











# COP29 NDU

## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

21 noyabr 2024-cü il tarixdə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində COP29-a həsr edilmiş rəsm sərgisi keçirilmişdir. Sərgidə təbiət və ekologiyanı özündə əks etdirən universitetin tələbə və müəllimlərinin əl işləri nümayiş olunmuşdur. Sərginin məqsədi ətraf mühitin qorunması və Naxçıvan Muxtar Respublikasının flora və faunasına diqqət çəkməkdən ibarət idi. Sərgi 10 gün müddətində davam edəcək, universitetin heyəti və şəhərimizin sakinlərinin ziyarətinə açıq olacaqdır.








*"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU











# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

Naxçıvan Dövlət Universiteti COP29-da uğurla təmsil olunaraq qlobal ekoloji məsələlərə dair təşəbbüslərini nümayiş etdirib. Tədbir çərçivəsində universitetin tələbəsi Şəhriyar Quliyevin Enterprise Azerbaijan-ın Top 5 startapı arasında yer alan AgroChat layihəsi “Green Zone” hissəsində keçirilən B2B görüşlərdə böyük maraqla qarşılanıb. Süni İntellekt dəstəkli torpaq analizi və fermer-aqronom platformasını birləşdirən AgroChat layihəsi, dayanıqlılıq və innovativ ekoloji həlləri ilə tədbir iştirakçılarının diqqətini cəlb edib.

Tədbirdə həmçinin NDU-nun Rektor köməkçisi Hüseyn Rəsulzadə hibrid formatda iştirak edərək universitetin ekoloji təşəbbüsləri, yaşıl layihələri və beynəlxalq əməkdaşlıqları haqqında ətraflı məlumat verib.

Hüseyn Rəsulzadə çıxışında “Bioçeşidlilik” mövzusuna xüsusi diqqət çəkərək, lokal təcrübələrdən danışıb və bu sahədə görülən işləri təqdim edib. Görüşlərdə universitetin yaşıl vizyonu yüksək qiymətləndirilib, AgroChat layihəsinin inkişafı və davamlılığı ilə bağlı gələcək perspektivlər müzakirə edilib.

COP29 çərçivəsində keçirilən bu görüşlərdə universitetin innovativ yanaşmaları, ekoloji problemlərə həssas münasibəti və qlobal əməkdaşlıq təşəbbüsləri bir daha ön plana çıxıb. Bu uğurlu iştirak NDU-nun yalnız lokal səviyyədə deyil, həm də beynəlxalq arenada ekoloji şüurun formalaşmasına verdiyi töhfələrin əyani sübutudur. Universitet, təbiət və texnologiyanı birləşdirən layihələrlə yaşıl dünyanın qurulmasında fəal rol oynadığını bir daha göstərib.








# "İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"

# COP29 NDU

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində COP29-a həsr olunmuş xüsusi bir konsert keçirilib. Təbiətin möcüzələrini musiqi vasitəsilə anlamağa çağıran bu tədbir, universitetdə sənətsevərlər üçün unudulmaz bir təcrübəyə çevrildi. Konsertdə NDU-nun rektoru Elbrus İsayev, universitetin rəhbər heyəti, müəllimlər və tələbələr iştirak edərək unikal musiqi ifalarının şahidi oldular. Konsertin proqramı musiqi tarixinin klassik və müasir inciləri ilə zəngin idi: Qara Qarayevin "Alban rapsodiyasından" "Andanito" və "İnsan məskən salır" əsərləri, Pyotr Çaykovskinin "Qu gölü baleti", Qabriel Faure və Andreas Romdheynin "Pavana" və "İsabel" kompozisiyaları, Nino Rotanın "Xaç atası" filmindən "Sevgi mövzusu", Karlos Qardelin tanqosu, Fəridə Ağayevanın "Ümid ver", "Payız" və "Sənsiz" mahnıları, Jan Reverberrinin "Odissea Veneçiano" əsəri, Bill Üithersin "Just the two of us" kompozisiyası, Alan Menkenin "Arabian nights" əsəri, Daniil Kramerin "Yelləncəklər"i, Ernesto Lekuonan "Malagueña"sı və digər ifalar tamaşaçıların zövqünü oxşadı. Bu tədbir yalnız sənətin gücünü nümayiş etdirməklə kifayətlənmədi, eyni zamanda COP29-un vacibliyinə diqqət çəkərək təbiət və musiqi arasında qurulan harmoniyanın əhəmiyyətini vurğuladı. Tədbir iştirakçıları musiqi vasitəsilə ekoloji mövzuların nə qədər təsirli şəkildə təqdim edilə biləcəyinə şahid oldular. Naxçıvan Dövlət Universiteti bu cür mədəni tədbirlərlə həm tələbələrinə, həm də cəmiyyətə sənət və ekoloji şüurun birləşməsinin vacibliyini göstərməkdədir.





# COP29 NDU

*"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*











# *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU

Naxçıvan Dövlət Universiteti, ekoloji davamlılıq və yaşıl gələcək strategiyası çərçivəsində həyata keçirdiyi çoxşaxəli fəaliyyətlərlə regionda ekoloji biliklərin tətbiqi və davamlı inkişaf prinsiplərinin təşviqi sahəsində nümunəvi mövqe nümayiş etdirir. Universitetin yaşıl enerji fəaliyyətlərini genişləndirməsi, alternativ enerji mənbələrinin tətbiqi və ekoloji maarifləndirmə tədbirləri, həm ekosistemin qorunması, həm də yeni nəsillərin ekoloji problemlərə daha həssas yanaşmasını təmin etmək məqsədinə xidmət edir.

Universitetin kampusunda yaşıllıq zolaqlarının artırılması, mövcud yaşıllıq örtüyünə qulluq göstərilməsi və könüllü tələbələrin iştirakı ilə keçirilən ağacəkmə aksiyaları, ekosistemin sağlamlaşdırılması baxımından böyük əhəmiyyət daşıyır. Tələbələrin bu təşəbbüslərdə fəal iştirakı onların ətraf mühitə olan məsuliyyət hissini artırmaqla yanaşı, kampusda daha estetik və ekoloji cəhətdən təmiz bir mühit yaradır. Bu tədbirlər, həmçinin regionun biomüxtəliflik potensialını qorumaq və yaşıllıq sahələrinin genişləndirilməsi məqsədini daşıyır.



# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

Karbon emissiyasının azaldılması istiqamətində NDU-nun atdığı addımlar xüsusi diqqətə layiqdir. Tütün məhsullarının istifadəsi üçün xüsusi zonaların yaradılması və bu zonalardan kənarda istifadənin qadağan edilməsi ilə bağlı lövhələrin yerləşdirilməsi, həm sağlam həyat tərzini təşviq edir, həm də ekoloji cəhətdən təmiz bir kampus mühitinin formalaşdırılmasına töhfə verir. Bu yanaşma, universitetin ekoloji məsuliyyət və sosial şüurun inkişafına yönəlmiş strategiyasını nümayiş etdirməklə bırabər gələck fəliyyət istiqamətinidə müəyyənləşdirir.

Bu tədbirlər, yalnız nəzəri maarifləndirmə ilə məhdudlaşmır, tələbələrin ekoloji məsələlərdə praktiki iştirakını da təmin edir.

NDU-nun biomüxtəliflik mövzusunda təşkil etdiyi elmi konfranslar və alternativ enerji mənbələrinin tətbiqi ilə bağlı layihələr, yalnız universitet səviyyəsində deyil, regional və beynəlxalq səviyyədə də böyük əhəmiyyət kəsb edir. Universitet, biomüxtəlifliyin qorunması və ekoloji dayanıqlılığın təmin edilməsi məqsədilə milli və beynəlxalq



əməkdaşlıqları genişləndirərək, Naxçıvan Muxtar Respublikasının zəngin ekoloji potensialını tanıtmaq üçün mühüm platformalar yaratmışdır. NDU-da həyata keçirilən bu ekoloji fəaliyyətlər, yalnız bu günün problemlərinə cavab verməklə kifayətlənmir, həm də gələcək nəsillərin təmiz, sağlam və davamlı bir dünyada yaşaması üçün uzunmüddətli bir vizyon təqdim edir. Universitetin ekoloji strategiyası, tələbələri gələcək liderlər olaraq hazırlamaqla yanaşı, onların təbiətə qayğı hissini artırmaq və onları qlobal iqlim problemlərinin həllində fəal iştirakçıya çevirmək məqsədini daşıyır.

NDU-nun bu strategiyası, Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə uyğun olaraq, yalnız Naxçıvanın deyil, bütün ölkənin ekoloji məsələlərdə daha güclü mövqe tutmasına töhfə vermək üçün atılmış qətiyyətli addımlardır. Bu yanaşma, Naxçıvan Dövlət Universitetini ekoloji biliklərin inkişaf etdirilməsi və tətbiqi baxımından ölkənin və regionun lider təhsil müəssisələrindən birinə çevirmişdir.

Universitetin gələcək fəaliyyətlərindən biri, “COP29” mövzusunda xüsusi buraxılışın hazırlanmasıdır. Bu buraxılışda universitet əməkdaşlarının və sahə üzrə tədqiqatçıların elmi-publisistik məqalələrinin dərc edilməsi planlaşdırılır. Xüsusi buraxılış, COP29 çərçivəsində universitetin ekoloji fəaliyyətlərinin geniş ictimaiyyətə çatdırılması və tələbələr arasında ekoloji məsuliyyətin artırılmasında mühüm rol oynayacaqdır. Bu təşəbbüs, həmçinin NDU-nun qlobal ekoloji problemlərin həllində fəal iştirakını daha geniş miqyasda nümayiş etdirəcəkdir.

Universitetin maarifləndirici tədbirləri də bu strategiyanın ayrılmaz bir hissəsidir. “Azərbaycanın yaşıl enerji potensialı” mövzusunda keçirilən seminarlar, “Yaşıl iqtisadiyyat” viktorinası kimi tədbirlər tələbələrə ekoloji problemlər və onların həlli yolları barədə biliklər təqdim edir. Həll yollarının şaxəıəndirilməsinə böyük imkanlar yaradır.

## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU

## *Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin COP29-la bağlı həyata keçirdiyi fəaliyyətlər*

15 may 2024-cü il tarixdə Naxçıvan Tibb Kollecində COP29 ilə bağlı açıq dərs keçirilmişdir. Açıq dərsdə kollecin Metodisti Aysel Əliyeva Mamalıq işi ixtisası tələbələrinə COP29-un ölkəmiz üçün mahiyyət və önəmindən danışaraq bildirmişdir ki, COP29 Azərbaycanın qlobal iqlim siyasətindəki rolunu artıracaq və ölkənin yaşıl enerji sektoru ilə əlaqəli təcrübələrini digər ölkələrlə paylaşması üçün bir platforma yaradacaqdır. Regionda daha geniş əməkdaşlıq və təcrübə mübadiləsi həyata keçirilməsi üçün bu konfrans böyük əhəmiyyət kəsb edir. Bakıda keçiriləcək konfransda bərpa olunan enerji və yeni iqlim texnologiyalarının inkişafı məsələləri geniş müzakirə edilmişdir.

Azərbaycan bərpa olunan enerji sektoruna yatırım və bu sahədə qabaqcıl texnologiyaların tətbiqinə dair yeni layihələr təqdim edə bilər. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə inkişaf etməkdə olan ölkələrin tələblərini də nəzərə alır. Bu, iqlim ədaləti və sosial bərabərlik məsələləri gündəmə gətirəcək. Bakıda keçiriləcək COP29, həm də Azərbaycanın iqlim dəyişikliyi sahəsindəki qabaqcıl yanaşmalarını və ölkənin qlobal səviyyədə daha təsirli bir oyunçu olma istəyini göstərəcək.

Eyni zamanda, 17 may 2024-cü il tarixdə keçirilən tədbirdə kollecin direktoru Sona Məmmədova çıxış edərək bildirmişdir ki, COP29 Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Konfransının 29-cu iclasıdır və əsas məqsədi qlobal iqlim dəyişikliyi ilə mübarizə yollarını müzakirə etmək, iqlim dəyişikliyinə qarşı kollektiv tədbirlər görməkdir. Bu konfrans, 1992-ci ildə qəbul edilmiş BMT İqlim Dəyişiklikləri Çərçivə Konvensiyası əsasında dünya ölkələrinin nümayəndələri tərəfindən hər il keçirilir. Azərbaycan 2024-cü ilin sonunda COP29 ev sahibliyi edəcək. Bu, Azərbaycanın beynəlxalq iqlim müzakirələrində daha fəal iştirak etməsi ilə barabər, qlobal iqlim siyasətinə verdiyi töhfənin göstəricisidir.









# COP29 NDU

## *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

20 may 2024-cü il tarixdə Naxçıvan Tibb Kollecində “Azərbaycanın COP29-a sədrliyi qlobal şimal və cənub arasında körpüdür” mövzusunda dəyirmi masa keçirilmişdir. Naxçıvan Tibb Kollecinin direktor müavini Səidə Şahverdiyeva çıxışında bildirmişdir ki, Azərbaycanın COP29-a sədrliyi və bu sədrliyin "qlobal Şimal və Cənub arasında körpü" mövzusunda olması, əslində ölkənin beynəlxalq iqlim siyasətindəki mühüm rolunu və strateji mövqeyini vurğulayan bir təşəbbüsdür. Bu mövzu, xüsusən inkişaf etmiş ölkələrlə və inkişaf etməkdə olan ölkələrlə arasındakı fərqliliklər və ədalətli iqlim siyasətləri məsələlərini gündəmə gətirir.

20-29 may 2024-cü il tarixlərində Naxçıvan Tibb Kollecində “Karbon qazı xaric edən texnikalara məhdudiyyətlərin tətbiq olunması ölkənin həyat keyfiyyətini artırır” mövzusunda keçirilən debata start verilmişdir. "Karbon qazı xaric edən texnikalara məhdudiyyətlərin tətbiq olunması ölkənin həyat keyfiyyətini artırır" adlı debatın mövzusunda müzakirə etmək üçün əsas iki fərqli perspektivdən yanaşmaq mümkündür: bir tərəfdən karbon qazı xaric edən texnikalara məhdudiyyətlərin tətbiq olunmasının ölkənin həyat keyfiyyətini artırması, digər tərəfdən isə bu məhdudiyyətlərin potensial iqtisadi və sosial təsirləri haqqında müzakirələr aparılmışdır. Müvafiq təlimlər, maliyyə dəstəyi və sektoral dəyişikliklər ilə bu məhdudiyyətlərin tətbiqi, ölkənin həyat keyfiyyətini artırmaq üçün daha təsirli ola bilər.









# "İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"

# COP29 NDU

20 may 2024-cü ildə Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci, COP29 çərçivəsində bir sıra maarifləndirici və praktiki tədbirlər həyata keçirmişdir. Ekoloji davamlılıq və yaşıl gələcək hədəflərinə sadiqliyini nümayiş etdirmişdir. Bu tədbirlər tələbələrin bilik və bacarıqlarını inkişaf etdirmək, onları ekoloji problemlərin həllində daha fəal iştiraka təşviq etmək məqsədi daşımışdır.

Kollecin tələbələri, baramaçılıq sahəsində təşkil edilən istehsalat təcrübəsi zamanı barama yetişdirilməsi prosesinə qatılmış və yerli kənd təsərrüfatının ekoloji əhəmiyyətini öyrənmişdirlər. Bu praktiki fəaliyyət, yalnız tədris prosesinin zənginləşdirilməsi ilə kifayətlənməmiş, həm də ekoloji məsuliyyət hissini artırmışdır.

"Ekoloji problemlər və onların həlli yolları" və "Yaşıl enerji" mövzularında keçirilən açıq dərslər vasitəsilə tələbələr ekoloji tarazlığın qorunması, bərpa olunan enerji mənbələrinin əhəmiyyəti və iqlim dəyişikliyinin təsirlərinin azaldılması kimi aktual mövzularla yaxından tanış olmuşdur.

Bu dərslər tələbələrdə ekoloji problemlərə daha həssas yanaşma və təbii ehtiyatlardan səmərəli istifadə mədəniyyətini formalaşdırmağa xidmət etmişdir.

COP29 çərçivəsində keçirilən "Yaşıl iqtisadiyyat" viktorinası və "İnsan, təbiət və cəmiyyət üçbucağı" mövzusunda təşkil olunan sərgi tələbələrin yaradıcı düşüncələrini nümayiş etdirməklə yanaşı, onların ekoloji biliklərini daha da zənginləşdirmişdir. Sərgidə tələbələrin çəkdiyi rəsmlər və hazırladıqları maketlər ekoloji məsuliyyət və milli-mənəvi dəyərlərə hörmət mövzularını əks etdirmişdir.

Naxçıvan Dövlət Texniki Kollecinin bu təşəbbüsləri, tələbələrdə yalnız nəzəri biliklərin inkişafına deyil, həm də praktiki təcrübənin artırılmasına şərait yaratmışdır. COP29 çərçivəsində həyata keçirilən bu fəaliyyətlər, kollecin davamlı inkişaf və yaşıl dünya prinsiplərinə olan bağlılığını göstərmiş, tələbələri ekoloji problemlərin həllində aktiv iştirakçıya çevirmək məqsədini reallaşdırmışdır.





# COP29 NDU

*"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*








# *“İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”*

# COP29 NDU

30 may 2024-cü il tarixində Naxçıvan Dövlət Universitetinin Texniki Kollecində COP29-a həsr olunan "Yaşıl iqtisadiyyat" mövzusunda viktorina keçirilmişdir.

Tədbirin əsas məqsədi, tələbələr arasında ekoloji iqtisadiyyat prinsipləri haqqında məlumatlılığı artırmaq və onları bu mövzu ilə bağlı biliklərini tətbiq etməyə təşviq etmək olmuşdur.

Viktorina, iştirakçıların qlobal iqlim çağırışları, yaşıl iqtisadiyyatın əsasları və ekoloji məsuliyyət barədə bilikləri yoxlamaq və dərinləşdirmək üçün xüsusi olaraq hazırlanmışdır. Bu tədbir tələbələr arasında həm bilik mübadiləsini gücləndirmiş, həm də COP29 çərçivəsində ölkənin ekoloji siyasətinə dair müzakirələrə olan marağı artırmışdır.

Hər iki tədbir, Naxçıvan Dövlət Universitetinin ekoloji maarifləndirmə və davamlı inkişaf istiqamətindəki töhfələrini nümayiş etdirərək, gənclərin ekoloji problemlərə qarşı həssaslığını artırmaq məqsədinə xidmət etmişdir.





# COP29 NDU

## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*












# *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU

12 İyun 2024-cü il tarixdə Naxçıvan Tibb Kollecində COP29 mövzusunda müəllim və tələbələrlə maarifləndirici görüş keçirilmişdir. Tədbirdə kollecin direktoru Sona Məmmədova çıxış edərək COP29-un mahiyyəti haqqında ətraflı məlumat vermişdir. Belə ki, çıxışda COP29-un nə olduğunu, onun əhəmiyyətini və iqlim dəyişikliyi ilə mübarizə sahəsində bizim necə bir rol oynaya biləcəyimiz məsələsi müzakirə edilmişdir.

O, qeyd etmişdir ki, iqlim dəyişikliyi qlobal miqyasda hər birimizin həyatına təsir göstərir və bu məsələdə beynəlxalq əməkdaşlıq həyati əhəmiyyət kəsb edir.

13 İyun 2024-cü il tarixdə Naxçıvan Tibb Kollecində COP29 mövzusunu özündə əks etdirən video çarx müəllim və tələbələrə nümayiş etdirilmişdir.










# COP29 NDU

## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*




12 iyun 2024-cü il tarixində Naxçıvan Dövlət Universiteti Texniki Kollecinin Elektrik təchizatı ixtisası tələbələri üçün Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiya təşkil olunmuşdur. Bu ekskursiya COP29 çərçivəsində ekoloji maarifləndirmə və biomüxtəliflik mövzusunda məlumatlılığın artırılması məqsədi daşıyırdı.

Ekskursiya zamanı tələbələrə milli parkın zəngin ekosistemi, flora və fauna aləminin qorunması istiqamətində görülən işlər, Naxçıvan Muxtar Respublikasının özünəməxsus bitki örtüyü və təbii sərvətləri haqqında məlumat verilmişdir. Tələbələr, həmçinin, parkın ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin dayanıqlığının təmin olunmasında necə mühüm bir rol oynadığı barədə praktiki biliklər əldə etmişlər.

Bu ekskursiya, tələbələrin ekoloji biliklərini genişləndirməklə yanaşı, onların COP29 kimi qlobal təşəbbüslər haqqında daha dərindən məlumatlanmasına şərait yaratmışdır. Tədbir zamanı gənclər Naxçıvanın biomüxtəliflik potensialı və onun davamlı inkişaf məqsədlərinə uyğun olaraq necə qorunduğunu yaxından müşahidə etmişlər. Bu təşəbbüs, tələbələrin ekoloji problemlərə daha həssas yanaşmasını təşviq etmək və onların gələcək fəaliyyətlərində ekoloji şüurun önəmini artırmaq baxımından böyük əhəmiyyət daşımışdır.





# “İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”

# COP29 NDU



25 sentyabr 2024-cü il tarixində NDU Naxçıvan Musiqi Kollecində “Yaşıl Dünya Naminə Həmrəylik İli” çərçivəsində “Yaşıl dünya naminə” adlı açıq dərs və ağacəkmə aksiyası təşkil edilmişdir. Tədbirdə kollecin bir qrup tələbəsi və müəllim heyəti iştirak edərək ekoloji maarifləndirmə və təbiətə qayğı mövzularında bilik və bacarıqlarını paylaşmışdır.

Tədbirin açılışında kollecin direktoru Məhəbbət Babayeva çıxış edərək təbiətin qorunmasının gələcək nəsillərin sağlam və təhlükəsiz mühitdə yaşaması üçün əhəmiyyətini vurğulamışdır. Daha sonra Bialogiya müəllimi Əliyevə Afaq və Coğrafiya müəllimi Təhməzova Gülnar ekosistemlə bağlı açıq dərslər keçirmiş, bitkilərin qorunması və ekoloji tarazlığın saxlanılması mövzularında ətraflı məlumat vermişlər.

Tədbirin yaradıcı hissəsində Rəngkarlıq ixtisası üzrə müəllim Əliyev Emin tərəfindən etüd dərslər keçirilmiş, tələbələrə təbiətin estetik dəyəri və onun sənət vasitəsilə necə əks etdirilə biləcəyi izah edilmişdir.

Ekoloji maarifləndirmə tədbirindən sonra kollecin həyətində ağacəkmə aksiyası həyata keçirilmişdir. Kollektivin və tələbələrin fəal iştirakı ilə müxtəlif ağac tingləri əkilərək yaşıllıq zolağı genişləndirilmişdir. Bu aksiyanın məqsədi yalnız kollecin ərazisini abadlaşdırmaq deyil, həm də iştirakçılara ekoloji məsuliyyət və təbiətə qayğı prinsiplərini aşılamışdır.





# COP29 NDU

## *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

12 oktyabr 2024-cü il tarixində COP29 və "Yaşıl Dünya Naminə Həmrəylik İli" çərçivəsində Naxçıvan Musiqi Kollecində "Yaşıllığımızı Qoruyaq" adlı aksiya keçirilmişdir. Kollecə aid yaşıllıq ərazisində keçirilən bu tədbir, ətraf mühitin qorunması və yaşıllıq sahələrinin saxlanılması istiqamətində mühüm bir təşəbbüs kimi diqqət çəkmişdir.

Aksiya zamanı ərazi tullantılardan təmizlənmiş, yeni tinglər əkilmiş və ağaclara qulluq göstərilmişdir. Eyni zamanda, ağacların suvarılması, qurumuş budaqların kəsilməsi və yaşıllıq zolaqlarının bərpası kimi fəaliyyətlər həyata keçirilmişdir.

Bu təmizlik və yaşıllaşdırma aksiyasında kollecin müəllim və tələbələri böyük fəallıq nümayiş etdirmişdir. Aksiyanın məqsədi yalnız ətraf mühitin mühafizəsinə töhfə vermək deyil, həm də gənclərdə ekoloji məsuliyyət hissini artırmaq olmuşdur.

"Yaşıllığımızı Qoruyaq" aksiyası, COP29 çərçivəsində Naxçıvan Musiqi Kollecinin dayanıqlı inkişaf hədəflərinə və təbii mühitin qorunmasına olan bağlılığını bir daha təsdiqləmişdir.






# *"İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü"*

# COP29 NDU

16 oktyabr 2024-cü il tarixində Naxçıvan Musiqi Kollecində COP29 çərçivəsində "Yaşıl Dünya Naminə Həmrəylik İli" ilə əlaqədar ekoloji maarifləndirmə məqsədilə açıq dərs təşkil edilmişdir. Coğrafiya müəllimi Təhməzova Gülnarın rəhbərliyi ilə keçirilən dərsə kollecin rəhbərliyi, bir qrup müəllim və tələbələr qatılmışdır. Tədbir Nəbatət bağında təşkil olunaraq bitki ekosisteminin öyrənilməsi və təbiətə daha yaxın bir mühitdə praktiki biliklərin təqdim edilməsi məqsədini daşımışdır.

Dərs zamanı iştirakçılar dünyanın müxtəlif bölgələrinə xas olan bitki növləri ilə yaxından tanış olmuş, onların saxlanılma şəraiti və çoxaldılma üsulları haqqında məlumat almışdır.

Açıq dərsin əhəmiyyətli bir hissəsi, bitkilərin ekoloji vəziyyətinin qiymətləndirilməsi və onların ətraf mühitin sağlamlaşdırılmasında oynadığı rolun müzakirəsindən ibarət olmuşdur. Tədbir çərçivəsində Qafqaz regionunun florası, onun unikal dekorativ bitkiləri və yerli ekosistemlərin qorunmasının vacibliyi barədə ətraflı məlumat təqdim edilmişdir. Bu dərs, yalnız biliklərin paylaşılması üçün deyil, həm də gənclərdə ekoloji şüur və təbiətə qayğı hissinin artırılması üçün bir platforma olmuşdur.

COP29 çərçivəsində keçirilən bu təşəbbüs, ekoloji maarifləndirmə və davamlı inkişaf məqsədlərinin təbliği istiqamətində NDU Naxçıvan Musiqi Kollecinin töhfəsi kimi böyük əhəmiyyət kəsb edir.









# COP29 NDU

## “İqlim Dəyişikliyi ilə Mübarizədə Akademik Liderlik və İnnovativ Yanaşmanın Təzahürü”

15 noyabr 2024-cü il tarixdə Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə 10-17 noyabr - “Beynəlxalq Tələbə Gənclər Həftəsi” və "Yaşıl dünya naminə həmrəylik İli" ilə əlaqədar Uzunoba gölünün ətrafında təmizlik aksiyası keçirilib. Aksiyaya Dövlət Texniki Kolleci, Tibb Kolleci və Musiqi Kollecindən ümumilikdə 30 tələbə qoşulub. Zəruri sanitar ləvazimatlarla təmin olunan gənclər tullantıları sahələrdən toplayıb, ətrafda səliqə-sahman yaradıblar.





